

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 150 (21.811)

*10 avqust 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Bakının Yasamal rayonunun keçmiş "Sovetski" ərazisində yenidən qurulan "Statistika" dairəsinin, Nəriman Nərimanov prospektinin və Abdulla Şaiq küçəsinin açılışında iştirak edib.

Prezident İlham Əliyev yolların texniki göstəricilərini əks etdirən stendlərə baxıb.

Dövlətimizin başçısına Bakı şəhərinin keçmiş "Sovetski" ərazisində yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin aparılması" layihəsi çərçivəsində görülən işlər barədə ətraflı məlumat verilib.

Prezident İlham Əliyev yeni yolların rəmzi açılışını bildirən lenti kəsib.

Sonra xatirə şəkli çəkdirilib.

Daha sonra Prezident İlham Əliyev yenidən qurulan "Statistika" dairəsində görülən işlərlə tanış olub. Dövlətimizin başçısı burada Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mikayıl Müşfiqin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 9-da Belarus Respublikası Dövlət Sərhəd Komitəsinin sədri Anatoli Lapponu qəbul edib.

## Muxtar respublikada iyul ayında 275 nəfər Yeni Azərbaycan Partiyası sıralarına daxil olmuşdur

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının iclasında verilən tapşırıqların icrası iyul ayında da diqqətdə saxlanılmışdır. Bu dövrdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və onun rayon (şəhər) təşkilatlarında 6 şura, 8 idarə heyəti iclası və 13 müxtəlif tədbir keçirilmişdir.

Belə ki, gənclərlə işə xüsusi diqqət yetirilmiş, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və rayon (şəhər) təşkilatları Gənclər Birliyinin xətti ilə 4 tədbir keçirilmiş, ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 48-ci ildönümü münasibətilə Heydər Əliyev Muzeyinə, "Naxçıvanı tanıyaq" devizi altında isə Duzdağ Fizioterapiya Mərkəzinə ekskursiyalar təşkil olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi tərəfindən 3-5 və 7-9 iyul tarixlərində Ağbulaq İstirahət Mərkəzində gənclərin "Yay məktəbi" təşkil olunmuşdur. "Yay məktəbi"ndə "Naxçıvan" Universitetindən və Naxçıvan Müəllimlər İnstitutundan 10 müəllim və 120 tələbə iştirak etmişdir.

Şəhər və rayon təşkilatları, eləcə də ərazi ilk partiya təşkilatları gənc və yaradıcı qüvvələrin partiya sıralarına cəlb edilməsinə diqqəti artırmış, qeyd olunan dövrdə 275 nəfər partiya sıralarına qəbul edilmişdir.

**Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi**

## Meliorasiya və irriqasiya tədbirləri diqqət mərkəzindədir



***Muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması sahəsində həyata keçirilən tədbirlər mütəmadi olaraq davam etdirilir.***

Yay aylarında əkin sahələrinin suvarma suyuna olan tələbatının ödənilməsi və sudan itkisiz istifadə diqqət mərkəzində saxlanılır, bu məqsədlə ardıcıl tədbirlər görülür. İyul ayında muxtar respublikanın rayonlarında 12 kilometr magistral kanal, 42 kilometr ara arxlar, 5 kilometr kollektor lildən təmizlənmiş, 7 kilometr yeni suvarma boru xətti çəkilmiş, 6 kilometr içməli su xətti təmir edilmişdir.

Yeni torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək, su itkisinin qarşısını almaq üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 400 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 7290 metr suvarma boru xətti çəkilmişdir.

Suvarma və içməli su mənbəyi kimi istifadə olunan 9 subartezian quyusunda yeni nasos quraşdırılmış, 6 kəhrizdə təmir-bərpa işləri aparılmışdır. "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində isə Şərur rayonunda 4500 metr su və 2200 metr kanalizasiya xətti çəkilmiş, Şahbuz şəhərindəki çirkab sutəmizləyici qurğuda tikinti işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətindən aldığımız məlumata görə, cari ilin iyul ayı ərzində xidmət miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, idarə edilməsi və tənzimlənməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması istiqamətində müvafiq tədbirləri davam etdirib.***

Ötən ay xidmət tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 32 əcnəbi aşkarlanıb. Onlardan 29-u barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərketmə, 3-ü barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 1690 müraciət daxil olub. Bu müraciətlərdən 83-ü əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Ötən ay ərzində olduğu yer üzrə qeydiyyatla bağlı xidmət tərəfindən 1607 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 487-si xidmətin sərhəd-buraxılış məntəqələrində fəaliyyət göstərən bölmələri tərəfindən qəbul və icra edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

**Xəbərlər şöbəsi**

***Muxtar respublikada hava nəqliyyatı ilbəil inkişaf edir, bu sahədə müasir texnologiyalar tətbiq olunur. Aparılan quruculuq işlərindən sonra Naxçıvan Beynəlxalq Hava Limanında sərnişin dövriyyəsi artmış və xidmət səviyyəsi yüksəlmişdir. Muxtar respublikada turizmin inkişafı da gələn qonaqların və hava nəqliyyatından istifadə edənlərin sayının artmasına səbəb olmuşdur.***

## Ötən ay Naxçıvan Beynəlxalq Hava Limanının xidmətlərindən 37 mindən artıq sərnişin istifadə etmişdir




İyul ayında yerli hava xətti ilə 36 min 433 sərnişin, 544 min 715 kiloqram baqaj, 29 min 137 kiloqram yük və 1881 kiloqram poçt daşınmışdır. Beynəlxalq hava xətti ilə Naxçıvan-Moskva reysi üzrə 558 sərnişin, 9062 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 444 sərnişin və 5467 kiloqram baqaj daşınmışdır.

Bu dövrdə Naxçıvan Beynəlxalq Hava Limanında teleskopik traplara, nəzarət-müşahidə kameralarına və kompüterlərə texniki baxış keçirilmiş, aerodrom ərazisindəki elektrik, işıqlandırma, rabitə, soyutma və havalandırma sistemlərinə texniki qulluq göstərilmiş, uçuş-enmə zolağı, dönmə yolları və dayanacaqlar mütəmadi yoxlanılmış, uçuşların vaxtında və təhlükəsiz təşkili təmin edilmişdir.

**Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti**

## Dəmir yolu nəqliyyatında xidmət nümunəvi təşkil edilib

***İyul ayında muxtar respublikanın dəmir yolu nəqliyyatında iş günün tələbləri səviyyəsində qurulmuş, yük-sərnişin qatarlarının fasiləsiz hərəkəti təmin olunmuş, dəmir yolu vasitəsilə muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 6 min 540 ton müxtəlif təyinatlı yük daşınmış, 11 min 873 sərnişin dəmir yolu nəqliyyatından istifadə etmişdir.***



Culfa Lokomotiv Deposunda elektrovozlar 5 dəfə texniki baxışdan keçirilmiş, 1 lokomotiv isə cari təmir edilmişdir. Culfa İstismar Vaqon Deposunda isə 21 müxtəliftipli vaqon cari təmir edilmişdir. İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına baxış keçirilmiş, yağış və leysan sularının maneəsiz ötürülməsi üçün süni tikililər, küvetlər və yol yataqları torpaq, çınqıl, daş və tullantılardan təmizlənmişdir. Texniki İnzibati Binaların Təmir Tikinti İdarəsi tərəfindən iyul ayında Ordubad dəmiryol sərnişin vağzalı, eləcə də Yol Sahəsinin inzibati binalarında və 4 saylı yol məntəqəsində aparılan yenidənqurma, Ordubad Yol Sahəsinin yardımçı binalarında, Ordubad İdarəetmə Mərkəzində və Naxçıvançay Təhlükəsizlik Komandasının inzibati binasında aparılan əsaslı təmir işləri və Culfa stansiyasında müasir tələblərə cavab verən yeni İstismar Vaqon Deposunun tikintisi davam etdirilmişdir.

Həyata keçirilən ardıcıl tədbirlər növbəti aylarda da dəmir yolu nəqliyyatından istifadə edən sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verəcəkdir.

**"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti**

Müasirləşən kəndlərimiz

## Ziyalıları ilə tanınan, milli dəyərlərin qorunub saxlandığı və müasir inkişafı ilə seçilən yurd yeri

# Nehrəm




***16 mindən çox sakinin yaşadığı bu kənd muxtar respublikanın ən qədim və iri yaşayış məntəqələrindən biridir. Ümumilikdə, Nehrəm biz jurnalistlər üçün əsl mövzu mənbəyidir. Nəyi yoxdur axı bu kəndin?! Qədim tarixi, müasir inkişafı, sahibkarlıq subyektləri, zəngin təsərrüfat həyatı, bir-birindən yaraşıqlı tikililəri, bir sözlə, sanballı yazı hazırlamaq üçün nə istəsən, bu kənddə tapa bilərsən. Ötən həftə Ali Məclis Sədrinin iştirakı ilə istifadəyə verilən Heydər Parkı isə kəndin hüsnünə yeni naxışlar vurub.***

Redaksiyamızın fotomüxbiri ilə Nehrəmə hansı yolla getmək barədə məsləhətləşirik. Bu dəfə rayon mərkəzindən yox, "Pircuvar düzü" tərəfdən getməyi məsləhət görür. Sonra əlavə edir ki, fərqi yoxdur, istər "Ala qapı"dan, istər rayon mərkəzindən, istərsə də, "Pircuvar düzü"ndən bu böyük kəndə getmək istəsən, rahat yol insanı mənzil başınadək müşayiət edəcək. Ötən ilin noyabr ayında Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun ikinci hissəsi istifadəyə veriləndən sonra adıçəkilən kəndlərin həyatında yeni mərhələ başlayıb. Həmin vaxt yeni kənd məscidinin istifadəyə verilməsi də nehrəmlilərin həyatında əlamətdar hadisə kimi qalmışdı. Dama-dama göl olar, – deyib ulularımız. Hər il bu böyük kənddə nə isə tikilir, qurub-yaradılır, sakinlərin rahatlığı təmin olunur. Budur, artıq ünvandayıq – müasir Azərbaycan kəndinə nümunə olan Nehrəmdə.

### Sakinlər minnətdarlıq edirlər

Kənd bələdiyyəsinin sədri Tofiq Abutalıbov elinə-obasına bağlı insanlardan biridir. Söz boğçası dolu olan bu el ağsaqqalı Nehrəmin bugünkü həyatından ürəkdolusu danışır. Deyir ki, orta və yaşlı nəslin nümayəndələri Nehrəmin illər öncəki görkəmini yaxşı xatırlayırlar. Hansısa rahat yoldan, müasir tikilidən söhbət gedə bilməzdi. Zaman dəyişdikcə kəndlinin həyatı da, yaşadığı doğma kəndi də görkəmini dəyişdi. Son illərdə bu yaşayış məntəqəsində mərhələli şəkildə həyata keçirilən genişmiqyaslı kompleks quruculuq tədbirləri Nehrəmə müasir görkəm gətirib. Ötən həftə isə kənddə daha bir yeni məkan – Heydər Parkı istifadəyə verilib. Hər yaş qrupundan olan insanlar bu parka gəlir, öz asudə vaxtını səmərəli təşkil edirlər. Burada Dövlət Bayrağı da ucaldılıb. Müstəqilliyimizin əsas atributlarından olan üçrəngli qürur mənbəyimizin kəndimizdəki parkda dalğalanması biz nehrəmlilər üçün, sözün əsl mənasında, iftixar mənbəyidir. Açılış mərasimində də qeyd olunduğu kimi, dahi şəxsiyyətin adının əbədiləşdiyi parkın yerində vaxtilə ulu öndər Heydər Əliyev nehrəmlilərlə görüşüb. Görkəmli dövlət xadimi o vaxt Nehrəm seçki dairəsindən Azərbaycan Ali Sovetinə deputat seçildi. Göründüyü kimi, nehrəmlilər tarixən ulu öndərin siyasi xəttini dəstəkləyib, bu yola sadiq olublar və bu gün də sadiqdirlər.

Gəlir Həsənov sürücüdür. Deyir ki, kənd yaşayış məntəqəsində ilk dəfədir ki, belə bir tədbir reallaşır və ərazidə Dövlət Bayrağı ucaldılır. Yeni salınan Heydər Parkı evimizə yaxın bir məsafədə yerləşir. İş vaxtımı başa vurduqdan sonra nəvələrimlə birgə parka üz tutur, onların sevincinə şərik oluram. Yaxşı xatirimdədir. Dahi rəhbər 1990-cı ildə məhz bu ərazidə bizimlə görüşmüşdü. O vaxt muxtar respublikamız ağır günlərini yaşayırdı. Ölkənin dahi şəxsiyyət Heydər Əliyev kimi bir Xilaskara ehtiyacı var idi. Ulu öndərin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri də dönməz, əbədi olan müstəqilliyimizi bizə ərməğan etməsi idi. Bu gün nəvələrimlə birgə yeni parkda rahat istirahət edirəmsə, deməli, ölkəmiz müstəqil, iqtisadiyyatımız güclüdür. Bugünkü nəsil həm də ona görə xoşbəxtdir ki, onlar müstəqillik illərinin gəncləridir. Günbəgün, anbaan yeniləşən, inkişaf edən muxtar diyarımızın, ölkəmizin tərəqqisinə onlar da şahidlik edirlər. Sağ olsun təşkilatçıları.

### Torpaqdan beşəlli yapışan nehrəmlilər

"O vaxt hər gün su bəndlərində dava-dalaş düşərdi. Həyət-bacanın suvarılması adı ilə verilən bir zinə su ünvanına çatmırdı. İndi nəinki həyətləri, üstəgəl, pay torpaqlarında əkin sahələrini, bostanları su ilə təmin edə bilirik. Hamıya məlumdur ki, Naxçıvanda qarpızın vətəni Nehrəmdir. Mövsümdə 10 min manatdan çox gəlir götürən sahibkarlar olur. Ona görə də kənddəki evlərin də üslubu, görkəmi hər keçən gün dəyişir",– deyən torpaq mülkiyyətçisi Həsənqulu Cəfərov bildirir ki, məhsulun satışında heç bir problem yoxdur.

Bir məqamı xatırlatmaq yerinə düşər. Görkəmli ədib Cəlil Məmmədquluzadə bu kənddə yaşayıb və o, zamanında kəndlilərin əməyini yüngülləşdirmək üçün Tiflisdən dəmir kotan gətirməyə nail olmuşdu. Artıq situasiya dəyişib. Müstəqil Azərbaycan dövlətinin kəndlisi elə müstəqil şəkildə də əkib-biçir, gün-güzəranını ən qiymətli sərvət olan torpaq hesabına təmin edir. Hər cür texnika və texnoloji avadanlığı da dövlət ona verir. Bunlar qətiyyən jurnalist təxəyyülünün məhsulu deyil. Faktlardır ki, burada bir-bir yada düşür. Digər bir fakt isə budur ki, bu günlərdə Naxçıvan-Ordubad magistralı boyunca Nehrəmin nemətli olan bostan məhsulları – qarpız, qovun istehlakçılara ucuz qiymətə təklif olunur.

### Gələcəyimizə xidmət edən Nehrəm məktəbləri

Bu yurd yeri Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, hərbi, mədəni və sosial həyatında mühüm rol oynayan görkəmli simalar bəxş edib. Bu kənddə neçə-neçə həkim, aqronom, müəllim, hərbçi və çoxlu ziyalılar yetişib. Kəndin təhsil ənənələri olduqca zəngindir. Hələ zamanında burada yaşayan böyük ədib Mirzə Cəlil qızları təhsilə cəlb etmək yolunda mühüm xidmətlər göstərib və heç bir şəraiti olmayan binalarda onlara dərs deyib.

Amma bu gün nehrəmli şagirdlər hər cür şəraitlə təmin olunmuş 3 böyük məktəbdə təhsil alırlar. Kənddəki 1 nömrəli tam orta məktəbdən aldığımız məlumata görə, builki qəbul imtahanlarında 27 şagird istənilən nəticəni əldə edib və ixtisas seçimi mərhələsinə adlayıb. Ümumilikdə isə kənd üzrə 49 şagird bu sevinci yaşayıb. Ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən 2 nömrəli tam orta məktəb də daxil olmaqla, hər üç təhsil ocağında müasir standartlara cavab verən təhsil infrastrukturu mövcuddur. Söhbət təhsildən düşmüşkən onu da qeyd edək ki, Nehrəmdə Uşaq Musiqi Məktəbi də fəaliyyət göstərir.





### Dahi ədib Mirzə Cəlil 7 il bu kənddə yaşayıb

Və cəmiyyəti düşündürən ən qiymətli əsərlərini Nehrəmdə qələmə alıb. Həmin vaxt əsl xalq müəllimi kimi tanınan və Həlimə xanım Nağı qızı ilə ailə həyatı quran vətəndaş-publisistin xatirəsi dövlətimiz tərəfindən hər zaman uca tutulur. Təsadüfi deyil ki, Naxçıvan şəhərində onun ev, Şərur rayonundakı Cəlilkənddə və Nehrəmdə Xatirə muzeyləri fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, Cəlil Məmmədquluzadə Xatirə Muzeyinin direktoru Akif Hacıyev deyir ki, daim xalqın savadlanmasına çalışan Mirzə Cəlilin Nehrəmdəki Xatirə Muzeyini hər il yüzlərlə adam ziyarət edir. Ədəbiyyatımızda, jurnalistikamızda yeni mərhələnin əsasını qoyan və kiçik hekayənin böyük ustadı olan ədibin həyat yolu və yaradıcılığı barədə ziyarətçilərə geniş məlumat veririk. Kənddə belə bir muzeyin fəaliyyət göstərməsi mədəniyyətimiz üçün də dəyərli töhfədir.





### Dəyərlərimizə qırılmaz tellərlə bağlanan nehrəmlilər

Ötən ilin noyabr ayında kənddə istifadəyə verilən müasir məscid binası sakinlərin böyük sevincinə səbəb olub. Kənd sakini Əli Salahovun sözlərinə görə, bu tikili kənddəki 11 məsciddən biridir. Onun dediklərindən:

– Sovet dönəmində dini dəyərlərimiz unudulur, məscidlərdən anbar kimi istifadə olunurdu. İndi isə az qala Nehrəmin hər məhəlləsində məscid var. Onlar dövlət tərəfindən təmir olunur, dini dəyərlərə hörmətlə yanaşılır. Oğul, ağsaqqal sözü, ağbirçək öyüdü ən böyük mənəvi sərvətdir. Biz də onları yaşadıb gələcək nəsillərə ötürmək istəyirik. Kənddəki tarixi "İmamzadə" türbəsində də təmir-bərpa işləri aparılır. İşlər yekunlaşdıqdan sonra kəndimiz yerli və xarici turistlərin ən çox üz tutduğu məkanlardan biri olacaq.

* * *

Qeyd edək ki, Nehrəmdə sahibkarlığın inkişafına da böyük qayğı göstərilir. Bunun nəticəsidir ki, bu gün kənddə 5 gəc sexi, 4 lavaşbişirmə müəssisəsi, 2 istixana kompleksi, 3 plastik qapı-pəncərə və 2 mebel sexi fəaliyyət göstərir.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Vahid Həsənov deyir ki, əlverişli investisiya mühitindən yararlanan hər kəs bu gün müəssisə qura bilər. Kənddə "Xalaoğlu" kəndli-fermer təsərrüfatı var ki, burada müxtəlif qablarda satışa çıxarılan kərə yağı, ayran və qatıq istehsal olunur. Sahibkar Rafiq Əliyevə məxsus istehsal obyektində 20 nəfərə yaxın nehrəmli daimi işlə təmin olunub. Bu ildən təsərrüfatda quş əti istehsalına da başlanılıb.

Bu, hələ son deyil. 2015-ci ildən Nehrəmdə üzümçülük təsərrüfatı da yaradılıb. İndiyə kimi heç bir bitkinin bitmədiyi bir sahədə – 150 hektarlıq geniş bir ərazidə üzüm bağı salınıb. Damcı üsulu ilə suvarılan bağa 7 kilometr ərazidən borularla su xətti çəkilib. Burada su ehtiyatı yaratmaq üçün biri açıq, digəri isə qapalı olmaqla, iki hovuz da yaradılıb, müasir kənd təsərrüfatı texnikaları alınıb. Bundan başqa, 25 hektar sahədə 50 mindən artıq məhsuldar alma tingi əkilib və təsərrüfatda 140 kənd sakini işlə təmin olunub.

Müsahibimiz bildirdi ki, kənddə sahibkarlarla yanaşı, sosial qayğıya ehtiyac duyan insanlar da dövlətin diqqətindən kənarda qalmayıb. Əlil və müharibə veteranı olan 5 nəfərə dövlət tərəfindən ev tikilib, həyətinə içməli su xətti çəkilib, üstəgəl, avtomobil də verilib.

*Bir sözlə, qədim Nehrəm bu gün müasir görkəmə qovuşub. Bu inkişafın əsasında isə ulu öndər Heydər Əliyev siyasi xəttinə sadiqlik dayanır. Müstəqil Azərbaycan sürətlə və əmin addımlarla öz yolunda irəliləyir, inkişaf edir. Nehrəm kəndi də bu inkişafdan öz nəsibini alır və gün keçdikcə daha da müasirləşir.*

**Muxtar RZAZADƏ**
*"Şərqin səhəri" qəzetinin redaktoru*

***Y**urdumuzun şanlı tarixinə adını qızıl hərflərlə yazmış elə nəsillər, sərkərdələr olub ki, onlar öz mərdliyi, igidliyi ilə vətənimizin müstəqilliyinə, ərazi bütövlüyünə misilsiz töhfələr veriblər. Hələ ötən əsrin 20-30-cu illərində milli hərbi kadrların yetişdirilməsində, vətənimizin müdafiə qüdrətinin möhkəmləndirilməsində xüsusilə sərkərdələrimizin danılmaz xidmətləri olub. Azərbaycanın hərb tarixində görkəmli rol oynamış belə sərkərdələrdən biri də Cəmşid Naxçıvanskidir. O, milli hərb tariximizə 6 general bəxş edən Kəngərli nəslindəndir. Bu tayfadan yetişən yüksəkrütbəli hərbi xadimlər – Ehsan xan, Kalbalı xan, İsmayıl xan, Hüseyn xan, Cəfərqulu xan Cəmşid Naxçıvanskinin həyatında mühüm rol oynayıb.***



# Cəmşid Naxçıvanski tariximizin şanlı səhifələrində

## *Görkəmli sərkərdənin adını daşıyan muzey onun şərəfli ömür yolunu əks etdirir*



10 avqust 1895-ci ildə Naxçıvan şəhərində dünyaya göz açan Cəmşid Naxçıvanski 43 illik ömrünün 26 ilini hərb sənətinə həsr edib. O, bu sənətə sıravi əsgər kimi gəlsə də, igidliyi, sədaqəti, qəhrəmanlığı və şücaəti sayəsində general kimi böyük rütbəyə yüksəlməyə nail olub. Hərb sənətinin inkişafında və kadr hazırlığı sahəsində mühüm rol oynayan sərkərdə fəaliyyətlərinə görə dəfələrlə mükafatlandırılıb. Misilsiz xidmətlərinə, böyük şücaətlərinə baxmayaraq, ötən əsrin 30-cu illərinin repressiyası Azərbaycanın digər görkəmli nümayəndələri kimi, böyük sərkərdə Cəmşid Naxçıvanskidən də yan keçməyib. 1938-ci il avqustun 26-sı görkəmli hərbi xadim Cəmşid Naxçıvanski ağır repressiyaya məruz qalıb və totalitarizmin qurbanına çevrilib.

Ancaq bu gün onun vətənimizin müstəqilliyi uğrunda göstərdiyi misilsiz xidmətlər yüksək qiymətləndirilir. Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi, Cəmşid Naxçıvanskinin ev-muzeyi, onun adını daşıyan məktəb və küçələr görkəmli hərbi xadimə verilən dəyərin bariz ifadəsidir.

Onun keçdiyi şərəfli ömür yolu haqqında daha dolğun məlumat almaq üçün yollandıq şəhərimizdə fəaliyyət göstərən Cəmşid Naxçıvanskinin ev-muzeyinə... Bu muzey unudulmaz sərkərdənin doğulduğu, ömrünün 12 ilini yaşadığı, hələ illər əvvəl çoxlarının Cəfərqulu xanın evi kimi tanıdığı öz doğma ocağıdır. Burada istər muzey, istərsə də sərkərdənin həyat və fəaliyyəti haqqında bizi muzey bələdçisi Gülnaz Hüseynova məlumatlandırdı. Dedi ki, xalqımızın görkəmli şəxsiyyətlərinin keçdikləri həyat yolunu öyrənmək, onları gənc nəslə bir nümunə kimi tanıtmaq muzeylərin başlıca vəzifəsidir. Məhz bu səbəbdən görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri olmuş Cəmşid Naxçıvanskinin ev-muzeyinin yaradılmasında ümummilli liderimiz Heydər Əliyevin əməyi çox yüksək qiymətə layiqdir. Cəmşid Naxçıvanskinin keçdiyi döyüş yolunun, hərbi fəaliyyətinin təbliği, adının əbədiləşdirilməsi muzeyin yaradılmasının ən ümdə məqsədlərindən biri olub. Ulu öndərimiz Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə Cəmşid Naxçıvanskinin anadan olmasının 85 illik yubileyi ilə əlaqədar 1981-ci il 8 avqust tarixli qərar imzalayıb. 22 oktyabr 1982-ci il tarixdə isə Naxçıvan şəhərində generalın ev-muzeyi fəaliyyətə başlayıb. Yarandığı dövrdə cəmi 300 eksponata malik olan muzeyin fondunda bu gün 6000-ə yaxın eksponat qorunub saxlanılır. 1000-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Muzeydə olarkən ekspozisiya zalında nümayiş olunan eksponatlara nəzər saldıq. Buradakı hər eksponat generalın ömür yoluna işıq salır, onun keçdiyi hər döyüşdən, qazandığı hər qələbədən xəbər verir.

Muzey ekspozisiyası 3 böyük zal və 1 otaqdan ibarətdir. Birinci böyük zaldakı 12 bölmədəki eksponatlar Cəmşid Naxçıvanskinin həyatını və hərb yolunu əks etdirir. Burada generalın uşaqlıq və ilk hərbi təhsil aldığı illərinə, Birinci Dünya müharibəsində döyüş yoluna, 1921-1931-ci illərdə Azərbaycan dağ atıcı diviziyasına komandirliyi dövrünə aid, M.V.Frunze adına Hərbi Akademiyada oxuduğu illərə, habelə akademiyada hərbi pedaqoji fəaliyyəti dövrünə dair sənədlər və fotoşəkillər nümayiş etdirilir. İkinci və üçüncü zallar memorial otaqlar kimi qorunub saxlanılır. Otaqlardan biri generalın iş otağı kimi nümayiş etdirilir. Burada onun şəxsi əşyaları, oxuduğu kitablar mühafizə olunur.

Muzeydə ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan otaq da öz zənginliyi ilə diqqəti çəkir. Otaqda ulu öndərin 1974, 1984, 1985-ci illərdə Bakıda Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi məktəbdə olarkən çəkilmiş fotoşəkilləri, 1990-cı ildə generalın anadan olmasının 95 illik yubileyində iştirakına aid fotoşəkillər, muzeyin açılışına aid fotolar öz əksini tapıb.

Gülnaz Hüseynova xüsusilə vurğuladı ki, görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin keçdiyi döyüş yolunu, onun hərb sənətindəki rolunu araşdırmaqla yanaşı, bu ölməz sərkərdənin hərbi istedad və bacarığının təbliği ilə gənclərimizdə hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılması muzeyin fəaliyyətinin əsasını təşkil edir. Generalın anadan olmasının ildönümü və yubiley günləri ilə əlaqədar muzeydə sərgilər hazırlanır, tədbirlər həyata keçirilir. Cəmşid Naxçıvanski ilə yanaşı, Kəngərli nəslinin yetişdirdiyi digər generallara həsr olunmuş sərgilər də təşkil edilir.

Bələdçi deyir ki, muzeyin əməkdaşları məktəblərdə, müəssisə və təşkilatlarda olur, Cəmşid Naxçıvanskinin həyatı və döyüş yolundan bəhs edən "Görkəmli Azərbaycan sərkərdəsi", "Cəmşid Naxçıvanskinin döyüş yolu gənclərə örnəkdir", "Unudulmaz komandir", "General haqqında xatirələr", "Cəsur sərkərdə" adlı məruzələrlə çıxışlar edirlər.

Gülnaz Hüseynova onu da qeyd edir ki, ekspozisiyanı zənginləşdirmək məqsədilə elmi heyət tərəfindən eksponat toplama işləri aparılması da diqqət mərkəzində saxlanılır. Son illərdə əldə olunan eksponatlar əsasında ekspozisiyada yeni guşə yaradılıb, digər guşələr zənginləşdirilib. Bunlardan "Cəmşid Naxçıvanskinin son taleyi" adlı guşə yenidir. Qafqazşünas alim R.N.İvanov tərəfindən muzeyə hədiyyə olunan Cəmşid Naxçıvanski ilə bağlı qiymətli eksponatlar da bu guşədə nümayiş etdirilir.

Görkəmli hərbi xadim Cəmşid Naxçıvanskinin şücaəti, xalqı qarşısında, vətənin müstəqilliyi uğrunda danılmaz xidmətləri hər zaman yüksək qiymətləndirilib. Generalın anadan olmasının 120 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 2 aprel tarixli Sərəncamı görkəmli şəxsiyyətə verilən dəyərin bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 9 aprel tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planına əsasən muxtar respublikada hərb tariximizin unudulmaz simalarından olan Cəmşid Naxçıvanskinin 120 illik yubiley tədbirləri keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamının icrası ilə əlaqədar müxtəlif dövlət təşkilatlarının, ali və orta ixtisas təhsili müəssisələri kollektivlərinin muzeyə mütəmadi kütləvi ziyarəti görkəmli generalın həyat və fəaliyyətinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvana gələn turistlər də buraya xüsusi maraq göstərirlər. Belə ki, Cəmşid Naxçıvanski irsinin yaşadılmasında, gələcək nəsillərə çatdırılmasında, gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında muzey öz fəaliyyətini uğurla davam etdirir.

Muzeylə tanışlıqda bir gənc kimi qürur və fəxarət hissi keçirdim ki, tariximiz böyük bir məhəbbətlə qorunur, bu tarixin şanlı səhifələrinə şərəflə, ləyaqətlə, şücaətlə düşən görkəmli şəxsiyyətlərimizin adı daim yaşadılır.

**Gülcamal TAHİROVA**

---

*Turizm*

# Muxtar respublikada kənd turizminin inkişafı üçün potensial imkanlar var

***İsti yay günlərində dincəlməyi hamı sevir. Bu fasildə mənalı asudə vaxt üçün çoxlu pul xərcləyib uzaq səyahətlərə çıxanlar da az deyil. Ancaq yaşadığı şəhərdən cəmisi bir-iki saatlıq məsafədə yaşıllıq içərisindəki kəndləri seçən elə insanlar da vardır ki, onlar üçün kənd turizmi ən sərfəli istirahət növüdür. Dünyanın, xüsusən də Avropanın inkişaf etmiş ölkələrində populyarlıq qazanan bu turizm növünə ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında maraq artmaqdadır. Zəngin təbii turizm ehtiyatlarımız və yenilənmiş sosial infrastruktur buna şərait yaradan əsas amillərdəndir.***





Kənd turizmi iqtisadi cəhətdən sərfəli, təşkilati baxımdan çox asandır. Bu turizm növünün təşkili zamanı digərləri ilə müqayisədə qarşıya çıxan çətinliklər yoxdur. Məsələn, yay tətili dövründə Naxçıvan şəhərində və ya muxtar respublikamızın digər şəhərlərində yaşayanlar üçün Şahbuz rayonunun Biçənək və ya Ordubadın Çənnəb kəndinə yollanmağı yaxın xaricdəki hər hansı turizm mərkəzinə səyahətlə müqayisə etdikdə bunu daha aydın şəkildə görmək olar. Belə ki, iki nəfərin birhəftəlik xarici ölkə turuna çəkdiyi xərclə dördnəfərlik bir ailənin ən azı iyirmi gün ərzində bir kənddəki bütün xərclərini ödəyəcək istirahət proqramı təşkil etmək mümkündür. Bundan əlavə, kənd turizmi, əsasən, daxili turizm tipinə aid olduğundan turistlər burada dil problemi, yaxud viza çətinlikləri ilə də qarşılaşmırlar. Turizmin bu növü turistlərin xərclərinə qənaətdən əlavə, onun təşkilatçıları olan kənd əhalisinin gəlir mənbəyidir. Kəndlinin öz evinin, yaxud həyətinin müəyyən bir hissəsini kirayə verməsi, turistləri gündəlik qida məhsulları ilə təmin etməsi yaxşı gəlir gətirir. Bu gün kəndlərimizdə sürətlə yenilənən infrastruktur şəraiti, əhali gəlirlərinin artması ilə onların mənzil-məişət şəraitinin yaxşılaşması da burada müsbət faktorlardandır. Şübhəsiz, şəhərli turistlər üçün kəndin ekzotikası, burada onlar üçün qeyri-adi olan cazibədar kənd mənzərələri, maraqlı adət-ənənələr, ekoloji təmiz və unikal menyu ilə hazırlanan mətbəx nümunələri əsas motiv olsa da, müasir standartlara uyğun yerləşmə şəraiti də mühüm şərtlərdən sayılır. Başqa sözlə, şəhərli turistlər üçün yaşıllıq içərisində olan kənd həyatında çox maraqlı cazibə elementləri vardır.

Şübhəsiz, havanın hərarətinin 40 dərəcəyə çatdığı bu yay günlərində ucqar dağ kəndlərinin sərin havası şəhər sakinləri üçün əsl turizm motividir. Doğrudan da, belə isti havalarda kənddə qalmayanı necə inandırasan ki, şəhərdə gecələr kondisionerdən istifadə etmədən yatmaq mümkün olmadığı halda, Şahbuzun dağ kəndlərində sakinlər bəzən axşamçağı qalın paltar da geyməli olurlar. Odur ki, kəndin sərin havasını, buz kimi sularını, günboyu kölgəliklərdə dincəlib gözəl vaxt keçirməyə imkan verən yamyaşıl bağbağçalarını bir dəfə görən bir də ora can atır. Həm də tək deyil, ailəliklə, dost-tanışlarla birgə.

Muxtar respublikamızda kənd turizminin inkişafı hazırda diqqət mərkəzindədir. Belə ki, kənd turizminin turizm ehtiyatlarımızdan istifadədə, əhali məşğulluğunun təmin olunmasındakı rolu dövlətin də maraq dairəsindədir. Bu sahədə hələ illər öncəsindən aparılan maarifləndirmə işləri öz bəhrəsini verməyə başlayıb. Artıq ötən illərdən etibarən dağ kəndlərimizdə bu istiqamətdə keçirilən tədbirlər əhalinin də biznesin bu növünə olan marağını artırıb. Onu da qeyd edək ki, isti yay günlərində ailəliklə kənddə qalıb dincəlmək ənənəsi əvvəllər, sovet dövründə də olub. Kəndlərimizin yaşlı sakinlərinin dediklərinə görə, ötən əsrin 50-60-cı illərində soyuducu məişət əşyalarının geniş yayılmadığı vaxtlarda kənd həyətlərində çadır qurub yay tətilini keçirənlər az olmayıb. O vaxtlar qazanc məqsədli fəaliyyət, yəni sahibkarlıq qadağan olunduğundan bu sahə də inkişaf etməyib. İndi isə azad bazar iqtisadiyyatı dövründə kəndlinin sahib olduğu hər bir resursun gəlirə çevrilməsi üçün əlverişli şərait və ondan istifadə üçün dövlət dəstəyi vardır. Şübhəsiz, Naxçıvan kəndlisi üçün istehsal etdiyi yüksəkkeyfiyyətli yağın, ətin, bal-qaymağın, süd-qatığın evinin içində yaxşı qiymətə satılmasından gözəl nə ola bilər? Üstəgəl, turistlərin gecələməsi üçün kirayə verilən daşınmaz əmlakdan əldə olunan gəlirlər. Qeyd etmək yerinə düşər ki, hazırkı bazar qiymətləri ilə bu məbləğ ölkəmizdə bir gün üçün 20-30 manat arasında dəyişir. İndi xarici ölkələrdəki otel qiymətləri ilə müqayisədə göründüyü kimi, bu, turistlər üçün çox da bahalı deyil, əksinə, daha çox müddətə qalmaq istəyənlər üçün daha sərfəlidir. Əgər nəzərə alsaq ki, kənd turizmində tur günlərinin sayı adi turlara, məsələn, tanışlıq turlarına nisbətən daha çox, adi hallarda 2-3 həftəyə, bəzən də bir aya qədər olur, onda yay fəslində bu sahəni sabit gəlir mənbəyi hesab etmək olar.

Muxtar respublikamızda kənd turizminin inkişafı perspektivləri yüksək qiymətləndirilir. Ötən illərdən başlayaraq Ordubad, Şahbuz və digər rayonlarda bu faydalı turizm növünün inkişaf etdirilməsi məqsədilə maarifləndirici tədbirlər də keçirilib. Naxçıvan Turizm-İnformasiya Mərkəzinin saytında muxtar respublikanın dağ kəndlərində turistlərin qala biləcəyi evlər haqqında məlumatlar yerləşdirilib. Bundan əlavə, muxtar respublika mətbuatında kənd turizmi potensialımız və ondan istifadə yolları haqqında da xeyli sayda maarifləndirici materiallar dərc olunub, verilişlər yayımlanıb.

Təəssüflər olsun ki, muxtar respublikamızda turizmin inkişafı üçün hər cür şəraitin yaradıldığı, tanışlıq, müalicə, idman, tranzit turizmi və digər turizm növləri üzrə xeyli irəliləyiş olduğu halda, kənd turizmi sahəsində hələ də müəyyən problemlər qalmaqdadır. Belə ki, bu il kənd turizminin mövcud vəziyyəti haqqında muxtar respublikanın rayon icra hakimiyyətlərinə göndərdiyimiz sorğulara yalnız Şahbuz və Ordubad rayonlarından aldığımız cavablarda Şahbuzda 11, Ordubadda isə 5 kənd evində turist qarşılanması üçün müvafiq şəraitin olduğu bildirildi. Həmin ev sahibləri ilə əlaqə saxladıqda isə ötən ildən bəri onlardan bəzilərində bir neçə dəfə qonaq qaldığını öyrəndik. Kəndlərimizin turizm cazibədarlığı, əhalinin qonaqpərvərliyi və ərazidə yaradılmış sosial-mədəni infrastrukturun mövcud imkanları kənd turizminin inkişaf etdirilməsində hamımızı səfərbər olmağa vadar edir. Çünki muxtar respublikamızda kənd turizminin də inkişafı son nəticədə, gəlirlərimizin artması, rifahımızın yüksəlməsi deməkdir.

**Əli CABBAROV**

## Azərbaycan dili dərslərində xalq mahnılarından istifadə

*Azərbaycan dili dünyanın qədim dil ailəsinə – türk dilləri qrupuna daxildir. Bu dil dünyanın elə bir dilidir ki, onu bilmək, o dildə danışmaq çox böyük şərəf və qürurdur. Ümummilli liderimiz Heydər Əliyev ana dilimiz haqqında deyirdi:* ***"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".***

Ana dilinin bütün fənlərlə geniş əlaqə imkanları vardır. Orta və ali məktəblərdə tədris olunan fənlərin hamısı öz "qidasını", əsasən, ana dilindən alır. Burada konkret olaraq Azərbaycan dili dərslərində xalq mahnılarımızdan, xalq musiqisindən istifadə və onun əhəmiyyəti haqqında bəzi fikirlərimizi oxucularla bölüşmək istəyirəm.

Ana dili bütün fənlərin ilk rüşeymi, digər dilləri öyrənməyin kökü və mənbəyidir. Ona görə də ayrı-ayrı elm sahələri nə qədər inkişaf etsə də, onların hamısının kökü ana dili adlı şəffaf dəryanın suyu ilə qidalanır.

Ana dilinin şirinlik və həzinliyini, gözəllik və zənginliyini özündə yaşadan incilərimizdən biri də xalq mahnılarımızdır. Sözlərinin şirinliyi, saflığı, təbiiliyi ilə ürək oxşayan bu mahnılar həzinliyi, həlimliyi ilə insanı ovsunlayır, dilimizin saf mayasından yoğrulmuş gözəlliyi ilə insanı heyran edir.

Xalq mahnılarının heyranedici mətnlərin sözlərindən və musiqisindən Azərbaycan dili dərslərində geniş şəkildə istifadə etmək imkanları çoxdur. Məsələn, fonetikanın tədrisində səslərin əmələ gəlməsi, onların formalaşdırılmasında danışıq üzvlərinin rolu, səslərin uzun və qısa tələffüzü, vurğu, səsin ahəngi, tonu, danışıq səslərinin digər səslərlə oxşar və fərqli əlamətləri öyrədilərkən xalq mahnılarından geniş istifadə etmək imkanları vardır. Belə ki, fonetika üzrə biliklərin möhkəmləndirilməsi zamanı üzərində iş aparılacaq xalq mahnılarından biri ustad müğənninin ifasında səsləndirilir. Şagirdlərə əvvəlcədən kollektiv və ya fərdi tapşırıqlar verilir. Məsələn, səslənəcək xalq mahnısında saitləri uzun tələffüz ediləcək sözlərin yazılması, nəqəratda hər misrada neçə hecanın olduğunun müəyyənləşdirilməsi, tələffüzü yazılışından fərqlənən sözlərin qeyd edilməsi, qoşadodaq samitlərin işləndiyi sözlərdən bir neçəsinin yazılması tapşırılır.

Butipli çalışmalar öyrənilmiş dil hadisəsini nəzəri baxımdan möhkəmlətməklə bərabər, onun təcrübədə tətbiqinə xidmət edir, şagirdləri düşündürür, diqqətli, həssas olmağa, dil qayda-qanunlarını xalq mahnılarımızın üzərində canlı müşahidələr aparmaqla öyrənməyə alışdırır.

Azərbaycan dili dərslərində bu məqsədlə hansı çalışmaların həll edilməsi tapşırıla bilər?

Azərbaycan xalq mahnılarının adlarını əlifba sırası ilə yazmaq, kar samitlərlə başlayan xalq mahnılarımızın adları qarşısında cingiltili samitlərlə başlayan xalq mahnılarının adlarını yazmaq; sait səslərlə başlayan xalq mahnılarının bütün saitlərini şifahi (yazılı) fonetik təhlil etmək; xalq mahnılarındakı, məsələn, "Qaragilə" mahnısının bəndlərinin sözlərini nitq hissələrinə görə qruplaşdırmaq; "Apardı sellər Saranı" Azərbaycan xalq mahnısında feilləri indiki zamanda işlətməklə cümlələri köçürmək.

Bundan sonra hər hansı bir xalq mahnısı üzərində nəzəri materiallar praktik işlə yoxlanılır. Bu məqsədlə şagirdlərə bildirilir ki, məsələn, əvəzliyin mənaca növlərini necə mənimsədiyinizi xalq mahnılarımızdan birinin – "Ay bəri bax"ın səsləndirilməsi ilə yoxlayacağıq. Onlar əvvəlcə bunun necə aparılacağı ilə maraqlanırlar və müəllimin təklifinə müxtəlif münasibət bildirirlər. Lakin müəllim nəzərdə tutduğu praktik işin nə məqsədlə yerinə yetirilməsi üçün şagirdlərə əvvəlcədən belə bir tapşırıq verir: Dinləyəcəyiniz xalq mahnısına diqqətlə qulaq asıb, onun mətnindəki əvəzlikləri seçib dəftərlərinizə qeyd edin. Bu da tapşırılır ki, hər kəs mahnının sözlərindəki əvəzlikləri elə yazsın ki, bir-birindən köçürmə halları müşahidə edilməsin. Axırda kimin daha çox və düzgün yazdığının yoxlanılacağı qeyd edilir. Şagirdlərin bir-birindən köçürməsinin qarşısını almaq üçün sıralardan birincisinə isimləri, ikincisinə sifətləri, üçüncüsünə əvəzlikləri, dördüncüsünə isə feilləri müəyyənləşdirib yazmağı da tapşırmaq olar.

Şagirdlər elektron lövhədə və ya kompüterdə səsləndirilən xalq mahnısına diqqətlə qulaq asırlar. Mahnı səsləndikcə hər şagird ona verilən tapşırığa uyğun iş aparır. Sonra yerinə yetirilmiş tapşırığın düzgünlüyü müxtəlif yollarla: müəllim tərəfindən, şagirdlərin bir-birinin səhvlərini tapması, müəllimin nəzarəti ilə uşaqların özlərini yoxlaması, müəllimin dəftərləri yığıb evdə nəzərdən keçirməsi və sair yollarla yoxlanılıb təhlil edilir. Məsələn, "Ay bəri bax" xalq mahnısını dinləyən şagirdlər müəyyənləşdirirlər ki, mətndəki bəri, səni, məni, hər sözləri əvəzlik, pəncərə, daş, göz, mil, gül, oğlan, yol, qız, dil sözləri isim, gəlir, bax, versələr, açılıb, yoldan eylər, bağlama, gedirəm, ağlama, bel bağlama sözləri isə feildir.

Azərbaycan dili dərslərində xalq mahnılarından istifadənin əhəmiyyəti əvəzsizdir. Bu əhəmiyyəti və bəzi təklifləri tezis şəklində aşağıdakı kimi göstərmək olar: Şagirdlər və ya tələbələr dil hadisələrini xalq ədəbiyyatı nümunələri üzərində müşahidə edirlər; xalq mahnılarımızı dinləyir, onların mətni, musiqisi və ifaçısı ilə yaxından tanış olurlar; Cabbar Qaryağdıoğlu, Bülbül, Seyid Şuşinski, Rəşid Behbudov, Hacıbaba Hüseynov, Qədir Rüstəmov, Alim Qasımov və başqa bu kimi ölməz sənətkarların əvəzsiz, ecazkar səsləri ilə "qidalanırlar"; yabançı musiqilər və son dövrlərdə yaranmış bir qisim sönük, zəif, məntiqsiz və mənasız "mahnılarla" dərin mənalı, milli xalq mahnılarımızı müqayisə edib müəyyən nəticə çıxarmağı bacarırlar. Bununla onlara ana dilimizə, ana dilli xalq mahnılarımıza, mədəniyyətimizə, milli musiqi folklorumuza, Vətənimizə böyük məhəbbət hissi aşılanır.

Bu vasitə ilə mənəvi sərvətlərimiz unudulmaqdan, başqaları tərəfindən mənimsənilməkdən xilas edilir; xalq mahnılarımız, milli musiqimiz, mədəniyyətimiz, dilimiz qorunur, yadda qalır, gələcək nəsillərə çatdırılır; ana dilimizin şəffaflığının təmsilçisi olan xalq mahnılarımız nəzarətsiz, unudulmuş qalmır, bayağılaşdırılmış, bəsitləşdirilmiş mətn variantından uzaq olur; gənc nəsil milli, bəşəri mədəniyyəti tanıyıb, onun qoruyucusu, təəssübkeşi və müdafiəçisi ruhunda böyüyüb tərbiyə olunur; tədrisdə xalq mahnılarından istifadə ana dilimizi öz kökləri, qaynaqları ilə bağlı şəkildə öyrənməyə xidmət edir.

*Qrammatik iş aparılması məqsədilə dərsdə şagirdlər mahnıları özləri də oxuya bilərlər. Bu, dərsin maraqlılığını və canlı olmasını daha da artırar. Bizcə, yeni hazırlanacaq dərsliklərdə xalq mahnıları mətnlərindən istifadə ilə bağlı çalışmaların verilməsi də faydalı olar.*

**Elbəyi MAQSUDOV**
*pedaqogika üzrə elmlər doktoru, professor*

## Yol hərəkəti qaydaları ilə bağlı tədbir keçirilib



*Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası, Naxçıvan Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi Bölməsi və 10 nömrəli uşaq bağçasının təşkilatçılığı ilə "Yaşıl işıq ver, yolu aç..." adlı tədbir keçirilib. Naxçıvan şəhərindəki 10 nömrəli uşaq bağçasının yaxınlığında keçirilən tədbirdə bağça uşaqları, müəllimlər və valideynlər iştirak ediblər.*

A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının direktoru Kəmaləddin Axundov çıxış edərək belə tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirilib ki, məqsəd uşaqların diqqətini yolda təhlükəsizlik qaydalarına yönəltmək, yol keçidi qaydaları haqqında onları məlumatlandırmaqdır.

Naxçıvan Şəhər Polis İdarəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşı Hüseyn Məmmədli çıxış edərək tətbiq olunan yol nişanları, onların müxtəlif qruplara bölünməsi haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Valideynlər adından Aybəniz Bayramova çıxış edərək tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Sonra kitabxana əməkdaşları, yol polisləri yol nişanlarının köməyilə valideyn və müəllimlərlə birlikdə uşaqlara yol hərəkəti qaydalarını, piyadaların düzgün hərəkəti üçün tələb olunan normaları əyani şəkildə göstəriblər.

Sonda uşaqlar bu mövzuda şeirlər söyləyib və onlara verilən sualları cavablandırıblar. Fərqlənən uşaqlara hədiyyələr təqdim edilib.

**Əli RZAYEV**

## Cüdoçular "Gülüstan" Tarix-Mədəniyyət Qoruğuna yürüş ediblər

Culfa Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə rayonda fəaliyyət göstərən yeniyetmə cüdoçu idmançıların "Gülüstan" Tarix-Mədəniyyət Qoruğuna yürüşü təşkil edilib.

Rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Elçin Cəfərov çıxış edərək keçirilən tədbirin mahiyyətindən, yeniyetmə və gənclərə göstərilən diqqət və qayğıdan, yay tətilinin səmərəli keçirilməsi məqsədilə təşkil olunan bu kimi tədbirlərin mahiyyətindən danışıb.

Sonra "Gülüstan" Tarix-Mədəniyyət Qoruğunun nəzarətçisi Zemfira Səfərova iştirakçılara Gülüstan türbəsi, buradakı muzey, Gülüstan kəndinin tarixi, etnoqrafiyası haqda məlumat verib.

Sonda yeniyetmələri maraqlandıran suallar cavablandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 4 sentyabr 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 %) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 0,108 hektar torpaq sahəsində yerləşən 75 nömrəli, 5 mərtəbəli binanın 3-cü giriş, 2-ci mərtəbəsində 69,95 kvadratmetr ümumi, 54,6 kvadratmetr yaşayış sahəsindən ibarət 4 otaqlı, 22 nömrəli mənzil | Naxçıvan şəhəri, "İstiqlal" küçəsi | 45 000 | 38 250 | 2 250 |
| 2. | 0,1047 hektar torpaq sahəsində yerləşən 2 mərtəbəli, 4 otaqlı, 35,55 kvadratmetr yaşayış, 111,58 kvadratmetr qeyri-yaşayış, 54,52 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Babək rayonu, Cəhri kəndi | 41 600 | 35 360 | 2 080 |
| 3. | 0,2001 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 47,04 kvadratmetr sahədən ibarət olan fərdi yaşayış evi | Sədərək rayonu, Qaraağac kəndi | 27 500 | 23 375 | 1 375 |
| 4. | 0,1319 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 32,00 kvadratmetr yaşayış, 64,97 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Aza kəndi | 24 000 | 20 400 | 1 200 |
| 5. | 1942,4 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 6 otaqlı, 210,0 kvadratmetr yaşayış, 139,5 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Sədərək rayonu, Sədərək kəndi | 22 404,20 | 19 043,57 | 1 120,21 |
| 6. | 0,1381 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 72,80 kvadratmetr yaşayış, 40,8 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Darkənd kəndi | 20 000 | 17 000 | 1 000 |
| 7. | 1096,7 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 74,8 kvadratmetr yaşayış, 49,14 kvadratmetr qeyri-yaşayış, 10,5 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Darkənd kəndi | 20 000 | 17 000 | 1 000 |
| 8. | 0,01217 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 77,15 kvadratmetr yaşayış, 44,29 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Sədərək rayonu, Qaraağac kəndi | 16 460,78 | 13 991,66 | 823,39 |
| 9. | 0,1231 hektar torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 59,56 kvadratmetr yaşayış, 80,16 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Ordubad rayonu, Aza kəndi | 16 000 | 13 600 | 800 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faizi məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 1 sentyabr 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ 21 NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
*- ödəniləcək behin qəbzi;*
*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 4 sentyabr 2017-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.

***Əlaqə telefonu: 545-01-38***


**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 635